İPƏK YOLU, No.2, 2025, səh.59-66
https://doi.org/10.30546/SI.2025.2.5.232

# AZƏRBAYCANDA YENİ AÇILMIŞ İŞ YERLƏRİNİN GƏNC ƏHALİNİN YAŞ STRUKTURU VƏ TƏHSİL SƏVİYYƏSİ ÜZƏRİNDƏKİ İQTİSADİ VƏ SOSİAL TƏSİRLƏRİNİN TƏHLİLİ

**Xanım Quliyeva**

Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA), Bakı, Azərbaycan
e-mail: khanim.guliyeva@tkta.edu.az

**Xülasə.** Məqalədə Azərbaycanda yeni açılmış iş yerlərinin gənc əhalinin yaş strukturu və təhsil səviyyəsi üzərindəki iqtisadi və sosial təsirləri təhlil edilmişdir. Yeni iş yerlərinin yaranması ilə təhsil səviyyəsi və işçi qüvvəsinin əmək bazarındakı iştirak səviyyəsi arasındakı əlaqə qiymətləndirilərək, Azərbaycanın dəyişən əmək bazarında gənclərin qarşılaşdıqları problemlər və imkanlar nəzərdən keçirilir.

**Açar sözlər:** Yeni iş yerləri, işsizlik, yaş strukturu, təhsil səviyyəsi.

## ANALYSIS OF THE ECONOMIC AND SOCIAL IMPACTS OF NEW JOB CREATION ON THE AGE STRUCTURE AND EDUCATION LEVEL OF THE YOUNG POPULATION IN AZERBAIJAN

**Khanim Guliyeva**
*Education Quality Assurance Agency (TKTA), Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the economic and social impacts of newly opened jobs in Azerbaijan on the age structure and education level of the young population. The relationship between the creation of new jobs and the level of education and labor force participation in the labor market is assessed, and the challenges and opportunities faced by young people in Azerbaijan's changing labor market are examined.
**Keywords:** New jobs, unemployment, age structure, education level.

## АНАЛИЗ ЭКОНОМИЧЕСКИХ И СОЦИАЛЬНЫХ ВОЗДЕЙСТВИЙ СОЗДАНИЯ НОВЫХ РАБОЧИХ МЕСТ НА ВОЗРАСТНУЮ СТРУКТУРУ И УРОВЕНЬ ОБРАЗОВАНИЯ МОЛОДЕЖИ В АЗЕРБАЙДЖАНЕ

**Ханым Гулиева**
*Агентство по Обеспечению Качества в Образовании (TKTA), Баку, Азербайджан*

**Резюме.** В статье анализируется экономическое и социальное влияние новых рабочих мест в Азербайджане на возрастную структуру и уровень образования молодого населения. Оценивается взаимосвязь между созданием новых рабочих мест и уровнем образования и участия рабочей силы на рынке труда, а также изучаются проблемы и возможности, с которыми сталкиваются молодые люди на меняющемся рынке труда Азербайджана.
**Ключевые слова:** Новые рабочие места, безработица, возрастная структура, уровень образования.

## 1. Giriş

İş yerlərinin yaradılması ölkənin iqtisadi və sosial mənzərəsinin formalaşmasında əsas rol oynayır, işçi qüvvəsinin iştirakına, gəlir bölgüsünə və ümumi iqtisadi artıma təsir göstərir. Xüsusilə, yeni açılan iş yerləri gənc əhalinin yaş strukturuna və təhsil səviyyəsinə təsir edir, çünki onlar karyera perspektivlərini, bacarıqların inkişafını və sosial mobilliyi müəyyən edir. Bu təsirləri anlamaq davamlı məşğulluğu və insan kapitalının inkişafını təşviq edən siyasətlərin işlənib-hazırlanması üçün vacibdir [1]. Azərbaycanda əmək bazarının dinamikası son on ildə müxtəlif iqtisadi sektorlar üzrə iş yerlərinin yaradılmasında əhəmiyyətli dəyişikliklərə məruz

qalmışdır. Məşğulluq imkanlarının mövcudluğu təhsil seçimlərinə təsir göstərir, çünki ixtisaslı işçi qüvvəsinə tələbat olduğu halda gənclərin ali təhsil almaq ehtimalı daha yüksəkdir [2]. Burada eyni zamanda onu da qeyd etmək lazımdır ki, məhdud iş perspektivləri işsizliyə, tam məşğulluğa və ya miqrasiyaya da səbəb ola bilər.

Son illərdə Azərbaycanda yeni yaradılmış iş yerlərinin dövlət və qeyri-dövlət sektorları üzrə paylanması daha geniş iqtisadi prosesləri və struktur dəyişikliklərini əks etdirir [3]. Bu tədqiqatda ölkədə məşğulluq tendensiyaları və iş yerlərinin yaradılması modelləri araşdırılır, həmçinin bu proseslərin gənc əhali üçün iqtisadi və sosial nəticələri təhlil edilir. Yeni iş yerlərinin yaranması ilə təhsil səviyyəsi və işçi qüvvəsinin əmək bazarındakı iştirak səviyyəsi arasındakı əlaqə qiymətləndirilərək, Azərbaycanın dəyişən əmək bazarında gənclərin qarşılaşdıqları problemlər və imkanlar nəzərdən keçirilir.

## 2. Azərbaycanda yeni açılan iş yerlərinin təhlili

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatlarında istifadə edilərək qeyd etmək olar ki, yuxarıda qeyd edilən amillər effektiv məşğulluq və təhsil siyasətlərinin hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

2020-2024-cü illər arasında Azərbaycanda yeni açılan iş yerlərinin təhlili iqtisadi şəraiti, siyasət tədbirlərini və özəl sektorun dinamikasını əks etdirən məşğulluq tendensiyalarında dəyişiklikləri Qrafik 1 –də öz əksini tapmışdır. Yeni yaradılan iş yerlərinin ümumi sayında əhəmiyyətli dəyişiklik müşahidə olunmuşdur; belə ki, 2020-ci ildə 128,979 olan bu göstərici, 2024-cü ildə kəskin azalaraq 24,178-ə düşmüşdür. Əsas müşahidə edilən məqam iş yerlərinin yaradılmasında mövcud müəssisə və təşkilatların əsas rol oynamasıdır. Belə ki, 2020-2023-cü illərdə bu müəssisələr yeni məşğulluq imkanlarının böyük əksəriyyətini təmin etmiş, müvafiq olaraq 2020-ci ildə 96 426, 2023-cü ildə isə 73 790 yeni iş yeri yaratmışdır. Buna baxmayaraq, 2024-cü ildə həmin rəqəm əhəmiyyətli dərəcədə azalaraq 20 486-ya düşmüşdür ki, bu da iqtisadi artım tempinin zəifləməsi və ya biznes strukturlarında potensial geriləmənin göstəricisi kimi qiymətləndirilə bilər. Yeni yaradılmış müəssisə və təşkilatların isə iş yerlərinin yaradılmasındakı rolu nisbətən məhdud olmuş və hər il 6,275-8,063 arasında yeni iş yeri yaradıldığı halda, 2024-cü ildə bu rəqəm 3,453-ə qədər geriləmişdir. Bu azalma yeni biznes təşəbbüslərinin mövcudluğu ilə yanaşı, məşğulluğa olan təsirlərinin tənzimləyici maneələr, maliyyə problemləri və ya bazar məhdudiyyətləri səbəbindən məhdud olduğunu göstərir. Bundan başqa, fəaliyyəti bərpa edilən müəssisələrin iş yerlərinin yaradılmasında rolu minimal səviyyədə qalır və onların töhfəsi ümumi məşğulluğa ciddi təsir göstərmir. Beynəlxalq və yerli layihələr hesabına açılan iş yerlərinin sayında da nəzərəçarpacaq azalma müşahidə edilir; belə ki, bu göstərici 2020-ci ildəki 24,071-dən 2024-cü ildə cəmi 150-yə qədər geriləmişdir. Bu hal xarici maliyyələşmə və ya inkişaf proqramlarının aktivliyinin əhəmiyyətli dərəcədə azaldığını əks etdirir. Özəl sahibkarlıq subyektlərinin yaradılması da oxşar eniş tendensiyası göstərmiş, 2020-ci ildə 165,101 olan yeni iş yerlərinin sayı 2024-cü ildə cəmi 21,272-yə qədər azalmışdır.

Bu kəskin azalma iqtisadi çətinliklər, tənzimləyici məhdudiyyətlər və ya biznes mühitində baş verən dəyişikliklər nəticəsində sahibkarlıq fəaliyyətinin zəiflədiyini işarə edir [4]. Ümumilikdə əldə olunan nəticələr göstərir ki, Azərbaycanda iş yerlərinin yaradılması prosesi 2020-ci ildən etibarən əhəmiyyətli dərəcədə zəifləmişdir və biznesin inkişafını stimullaşdıran, investisiyaları təşviq edən və əmək bazarının dayanıqlılığını gücləndirən siyasət tədbirlərinin zəruriliyini ortaya qoyur.




**Qrafik 1.** Azərbaycanda hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayı (min)
**Mənbə:** [14]

2016-2023-cü illərdə Azərbaycanda məşğulluq tendensiyalarının təhlili işçi qüvvəsinin yaş və cins strukturunda əhəmiyyətli dəyişiklikləri aşkar edir. Belə ki, işçilərin ümumi sayı ardıcıl şəkildə artaraq, 2016-cı ildəki indikator 1 514,3 min nəfərdən 2023-cü ildə 1 745,5 min nəfərə çatmışdır (Qrafik 1). Bu artım iqtisadi genişlənmənin, eləcə də əmək bazarında yeni iş yerlərinin yaradılmasının göstəricisidir. Bununla belə, məşğulluğun müxtəlif yaş kateqoriyaları üzrə bölgüsü gənc işçi qüvvəsinə dair bir sıra spesifik tendensiyaları ortaya çıxarır. Məsələn, 15-19 yaş kateqoriyasında məşğulluğun 2022-ci ildə 4,3 min nəfərdən 2023-cü ildə 7,4 min nəfərə yüksəlməsi əmək bazarında gənclərin iştirak səviyyəsinin qeyri-sabit xarakter daşıdığını göstərir. Bu vəziyyət ehtimal olunur ki, pandemiyadan sonra iqtisadi canlanma, həyata keçirilən əmək bazarı siyasətləri və peşə təhsili proqramlarının təsiri ilə əlaqələndirilə bilər. 20-24 yaş kateqoriyası üzrə məşğulluq səviyyəsi nisbətən sabit qalmış, lakin müəyyən dərəcədə dəyişkənlik nümayiş etdirmişdir: məşğulluğun sayı 2022-ci ildə 141,1 min nəfərə çatdığı halda, 2023-cü ildə cüzi şəkildə azalaraq 138,2 min nəfərə düşmüşdür. Bu hal əmək bazarında doymanı və ya təhsil sistemində iştirak müddətinin uzanması səbəbindən gənclərin işçi qüvvəsinə daxil olmasının gecikməsini əks etdirə bilər [5]. Ən böyük məşğulluq artımı isə 30-

39 yaş kateqoriyasında müşahidə edilmişdir. Xüsusilə, 30-34 yaş kateqoriyasında məşğulluq sayı 2023-cü ildə 288,7 min nəfərə, 35-39 yaş kateqoriyasında isə 280,4 min nəfərə yüksəlmişdir ki, bu da təcrübəli işçi qüvvəsinin əmək bazarında aparıcı mövqe tutduğunu və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi olduğunu təsdiqləyir.

Gender aspektindən yanaşdıqda, Azərbaycanda məşğulluq strukturunda kişi işçi qüvvəsi üstünlük təşkil etsə də, qadınların əmək bazarında iştirak səviyyəsi davamlı şəkildə artmışdır. Belə ki, qadın işçilərin sayı 2016-cı ildəki 625,8 min nəfərdən 2023-cü ildə 705,1 min nəfərə qədər yüksəlmişdir. Xüsusilə qadın məşğulluğunun 30-39 və 60-64 yaş kateqoriyalarında nəzərəçarpacaq dərəcədə artması iqtisadi inklüzivliyin genişləndiyini və qadınların əmək bazarında iştirakının artdığını vurğulayır.

Ümumilikdə, statistik göstəricilər məşğulluğun ümumi artımını nümayiş etdirsə də, gənclərin məşğulluğundakı məhdud və qeyri-stabil artım əmək bazarının balanslı və davamlı inkişafını təmin etmək məqsədilə gənclərin məşğulluğunu təşviq edən məqsədyönlü siyasətlərin tətbiqini zəruri edir (Qrafik 1).

**Cədvəl 1.** Azərbaycanda muzdla çalışan işçilərin yaş qrupları və cins üzrə sayı

| Yaş qrupları | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **1514,3** | **1525,0** | **1551,7** | **1646,6** | **1698,7** | **1709,1** | **1738,7** | **1745,5** |
| 15-19 | 3,2 | 2,9 | 2,8 | 4,8 | 3,4 | 5,4 | 4,3 | 7,4 |
| 20-24 | 124,7 | 123,6 | 130,9 | 127,8 | 130,4 | 134,1 | 141,1 | 138,2 |
| 25-29 | 218,5 | 221,0 | 234,9 | 243,2 | 245,9 | 244,6 | 249,8 | 245,5 |
| 30-34 | 238,8 | 243,5 | 251,6 | 277,6 | 285,3 | 287,8 | 290,7 | 288,7 |
| 35-39 | 217,2 | 222,6 | 228,1 | 259,5 | 267,0 | 271,5 | 275,5 | 280,4 |
| 40-44 | 178,1 | 184,6 | 185,6 | 199,3 | 211,7 | 216,3 | 219,7 | 227,8 |
| 45-49 | 164,5 | 161,8 | 155,6 | 163,1 | 166,9 | 166,4 | 170,6 | 173,5 |
| 50-54 | 158,6 | 154,7 | 147,6 | 147,2 | 149,4 | 144,8 | 141,0 | 138,9 |
| 55-59 | 132,1 | 131,1 | 130,3 | 129,5 | 132,2 | 126,2 | 126,2 | 123,5 |
| 60-64 | 59,5 | 60,6 | 64,7 | 72,7 | 82,4 | 87,0 | 94,6 | 95,3 |
| 65+ | 19,1 | 18,6 | 19,6 | 21,9 | 24,1 | 25,0 | 25,2 | 26,3 |
| **Kişilər** | **888,5** | **898,0** | **919,1** | **986,9** | **1028,2** | **1033,5** | **1046,1** | **1040,4** |
| 15-19 | 2,0 | 1,3 | 1,5 | 2,9 | 2,0 | 3,4 | 2,7 | 4,4 |
| 20-24 | 75,7 | 75,3 | 81,7 | 77,2 | 78,3 | 80,5 | 83,7 | 79,7 |
| 25-29 | 133,3 | 139,1 | 148,8 | 153,2 | 154,9 | 153,8 | 155,6 | 149,6 |
| 30-34 | 146,4 | 149,4 | 154,6 | 174,3 | 180,9 | 181,5 | 183,1 | 179,2 |
| 35-39 | 129,8 | 133,3 | 138,8 | 159,5 | 169,3 | 172,2 | 174,0 | 177,0 |
| 40-44 | 99,2 | 104,7 | 106,8 | 119,0 | 128,7 | 130,1 | 132,6 | 136,2 |
| 45-49 | 88,8 | 87,2 | 82,2 | 88,9 | 92,2 | 92,7 | 94,8 | 97,6 |
| 50-54 | 85,9 | 83,0 | 78,3 | 79,2 | 80,3 | 78,1 | 76,1 | 75,1 |
| 55-59 | 75,7 | 72,8 | 70,9 | 71,9 | 72,5 | 69,3 | 68,9 | 67,1 |
| 60-64 | 38,5 | 39,3 | 42,0 | 46,0 | 52,8 | 54,8 | 57,0 | 56,3 |
| 65+ | 13,2 | 12,6 | 13,5 | 14,8 | 16,3 | 17,1 | 17,6 | 18,2 |
| **Qadınlar** | **625,8** | **627,0** | **632,6** | **659,7** | **670,5** | **675,6** | **692,6** | **705,1** |
| 15-19 | 1,2 | 1,6 | 1,3 | 1,9 | 1,4 | 2,0 | 1,6 | 3,0 |
| 20-24 | 49,0 | 48,3 | 49,2 | 50,6 | 52,1 | 53,6 | 57,4 | 58,5 |
| 25-29 | 85,2 | 81,9 | 86,1 | 90,0 | 91,0 | 90,8 | 94,2 | 95,9 |
| 30-34 | 92,4 | 94,1 | 97,0 | 103,3 | 104,4 | 106,3 | 107,6 | 109,5 |
| 35-39 | 87,4 | 89,3 | 89,3 | 100,0 | 97,7 | 99,3 | 101,5 | 103,4 |
| 40-44 | 78,9 | 79,9 | 78,8 | 80,3 | 83,0 | 86,2 | 87,1 | 91,6 |
| 45-49 | 75,7 | 74,6 | 73,4 | 74,2 | 74,7 | 73,7 | 75,8 | 75,9 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 50-54 | 72,7 | 71,7 | 69,3 | 68,0 | 69,1 | 66,7 | 64,9 | 63,8 |
| 55-59 | 56,4 | 58,3 | 59,4 | 57,6 | 59,7 | 56,9 | 57,3 | 56,4 |
| 60-64 | 21,0 | 21,3 | 22,7 | 26,7 | 29,6 | 32,2 | 37,6 | 39,0 |
| 65+ | 5,9 | 6,0 | 6,1 | 7,1 | 7,8 | 7,9 | 7,6 | 8,1 |

**Mənbə:** [14]

Azərbaycanda yeni yaradılan iş yerlərinin gənc əhalinin təhsil səviyyəsi üzərində iqtisadi və sosial təsirlərinin 2018-2023-cü illəri əhatə edən təhlili əmək bazarında bir sıra mühüm struktur dəyişikliklərini üzə çıxarır (Cədvəl 2). Qeyd olunan dövrdə muzdla çalışan işçilərin ümumi sayı 2018-ci ildə 1.524.951 nəfərdən 2023-cü ildə 1.745.466 nəfərə yüksəlmişdir ki, bu da yeni yaradılmış iş yerlərinin əmək bazarının genişlənməsinə və iqtisadi inkişafa müsbət təsir göstərdiyini vurğulayır. Təhsil səviyyəsi üzrə məşğulluğun bölgüsünə nəzər saldıqda, xüsusilə ali təhsilli işçilərin sayında nəzərəçarpacaq artım müşahidə olunur. Belə ki, ali təhsilli işçilərin sayı 2018-ci ildə 612 065 nəfərdən 2023-cü ildə 759 621 nəfərə qədər artmışdır. Bu 24%-lik artım əmək bazarında yüksək ixtisaslı mütəxəssislərə artan tələbatı və xüsusilə qeyri-dövlət sektorunda bu tendensiyanın daha da qabarıq olduğunu göstərir. Sözügedən artımın iqtisadi şaxələndirmə siyasəti və texnoloji inkişaf nəticəsində daha yüksək ixtisaslı kadrlara olan tələbin artması ilə bağlı olduğu düşünülə bilər. Əksinə, peşə və orta ixtisas təhsilli işçilərin məşğulluq səviyyəsi fərqli və mürəkkəb dinamika nümayiş etdirir. Belə ki, peşə təhsilli işçilərin məşğulluğu müəyyən qədər dəyişkən olsa da, ümumilikdə nisbətən sabit qalmışdır və bu, əmək bazarında texniki bacarıqlara davamlı, lakin məhdud bir tələbatın mövcudluğunu göstərir. Orta təhsilli işçilərin məşğulluğunda isə (həm tam orta, həm də ümumi orta təhsil səviyyəsində) xüsusilə 2021-ci ildən sonra azalma tendensiyası müşahidə olunur. Bu hal onu göstərir ki, daha çox gənc əmək bazarına dərhal daxil olmaq əvəzinə əlavə təhsil almağı və ixtisaslarını yüksəltməyi üstün tutur. Bununla yanaşı, ibtidai təhsil səviyyəsinə malik və heç bir rəsmi təhsili olmayan işçilərin sayı ümumi işçi qüvvəsi içərisində çox məhdud olsa da, diqqətçəkən məqamdır. Belə ki, təhsili olmayan işçilərin sayı 2021-ci ildə 1714 nəfərdən 2023-cü ildə 1737 nəfərə yüksəlmişdir ki, bu da əmək bazarındakı sosial-iqtisadi bərabərsizliklərin davam etməsindən xəbər verir.

Cədvəl 2-də əks olunan statistik göstəricilər ümumilikdə onu göstərir ki, yeni yaradılan iş yerlərində daha çox ali təhsilli işçilərə üstünlük verilir və bu, inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşmaq üçün təhsilə və bacarıqların artırılmasına davamlı investisiyaların həyata keçirilməsinin vacibliyini vurğulayır.

Azərbaycanda gənc əhalinin yaş strukturu və təhsil səviyyəsinə yeni yaradılan iş yerlərinin iqtisadi və sosial təsirlərinin təhlili əmək bazarının inkişaf tendensiyalarını və bu prosesin nəticələrini aydın şəkildə ortaya qoyur. 2018-2023-cü illər üzrə təhsil səviyyəsinə dair məşğulluq məlumatları göstərir ki, xüsusilə ali təhsilli işçilərin sayında davamlı artım müşahidə olunmuşdur. Belə ki, ali təhsilli işçilərin sayı 2018-ci ildə 612 065 nəfər olduğu halda, 2023-cü ildə bu göstərici 759 621 nəfərə yüksəlmişdir ki, bu da əmək bazarında yüksək ixtisaslı işçi qüvvəsinə artan tələbatı nümayiş etdirir (Cədvəl 2). Sözügedən tendensiya göstərir ki, əmək

bazarı getdikcə daha çox savadlı və ixtisaslı kadrlara üstünlük verməkdədir və bu da gənclərin ali təhsil almağa olan marağını artıraraq, onların məşğulluq imkanlarını genişləndirir. Bununla belə, yeni yaradılan iş yerlərinin ümumi təhlili göstərir ki, 2020-ci ildən etibarən ölkədə iş yerlərinin yaradılmasında əhəmiyyətli azalma müşahidə edilir. Belə ki, 2020-ci ildə 128 979 yeni iş yeri yaradıldığı halda, 2024-cü ildə bu göstərici 24 178-ə qədər enmişdir. Ən kəskin azalma isə özəl müəssisələrdə müşahidə edilmiş, 2022-ci ildə 165 101 yeni iş yeri yaradıldığı halda, sonrakı illərdə bu rəqəm sürətlə azalmışdır (Cədvəl 2). Yeni yaradılan iş yerlərinin azalması, xüsusən gənc işçi qüvvəsinin yaş strukturu və təhsil səviyyəsinə birbaşa təsir etməkdədir. Məşğulluq imkanlarının məhdudlaşması gənc məzunların əmək bazarına daxil olması çətinləşməkdə, bu isə qeyri-məşğulluq risklərinin artmasına və ya gənclərin daha əlverişli imkanlar axtarışı ilə xarici miqrasiyasına səbəb ola biləcəkdir (World Bank, 2022; ETF, 2020). Bundan əlavə, aşağı təhsil səviyyəsinə malik işçilərə olan tələbatın sabit və məhdud səviyyədə qalması əmək bazarında sosial-iqtisadi fərqliliklərin dərinləşməsinə gətirib çıxarır, bu da ali təhsili olmayan əhali qruplarının karyera imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır (Cədvəl 2).

Məşğulluq artımının zəifləməsi işçi qüvvəsinin əmək bazarına iştirak səviyyəsini məhdudlaşdırmaqla yanaşı, bacarıq uyğunsuzluğunun dərinləşməsinə də səbəb olmuşdur. Əmək bazarında balansın təmin edilməsi məqsədilə iş yerlərinin yaradılmasının stimullaşdırılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və təhsil sisteminin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması istiqamətində məqsədyönlü siyasətlərin hazırlanması və tətbiqi zəruridir. Əks halda, ölkə gənc və yüksək ixtisaslı işçi qüvvəsinin potensialından tam istifadə etmək imkanlarını itirə və bu sahədə ciddi iqtisadi və sosial problemlərlə qarşılaşa bilər [6].

**Nəticə.** Aparılan təhlillər göstərir ki, Azərbaycanda yeni yaradılmış iş yerləri gənc əhalinin yaş strukturu və təhsil səviyyəsinə mühüm iqtisadi və sosial təsirlər göstərmişdir. Statistik göstəricilər əmək bazarının dinamikasında ali təhsilli işçi qüvvəsinə artan tələbatı önə çıxarır. Bu tendensiya əmək bazarında savadlı və ixtisaslı kadrlara üstünlük verilməsinin, eləcə də təhsil səviyyəsinin yüksəlməsinin gənclərin məşğulluq imkanlarının artırılmasında əsas determinant olduğunu göstərir.

Bununla belə, yeni yaradılan iş yerlərinin azalması, xüsusilə qeyri-dövlət sektorunda müşahidə olunan dalğalanmalar, əmək bazarının dayanıqlığı və gənclərin əmək bazarına inteqrasiyası baxımından risk faktorları kimi çıxış edir. Mövcud vəziyyət iş yerlərinin yaradılmasının stimullaşdırılması, sahibkarlıq mühitinin inkişaf etdirilməsi və təhsil proqramlarının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması istiqamətində məqsədli və sistemli siyasət tədbirlərinin həyata keçirilməsini zəruri edir.

Sosial müstəvidə isə iş imkanlarının genişləndirilməsi, gənclərin iqtisadi fəallığının və əmək bazarına daxil olma səviyyəsinin artırılmasında, işsizlik risklərinin azaldılmasında və sosial sabitliyin möhkəmləndirilməsində vacib rol oynamağa davam edir. Bu kontekstdə

xüsusilə gənclərin əmək bazarında inklüziv iştirakını və rəqabətqabiliyyətini təmin etmək məqsədilə peşə təhsili və karyera istiqamətinin gücləndirilməsi, eyni zamanda işəgötürənlərlə ali təhsil müəssisələri arasında əlaqələrin intensivləşdirilməsi zəruridir.

Əldə olunan nəticələr əsasında belə qənaətə gəlmək olar ki, Azərbaycanda əmək bazarının balanslı və dayanıqlı inkişafını təmin etmək üçün təhsil, məşğulluq və sahibkarlıq sahəsində qarşılıqlı əlaqəli və innovativ yanaşmalara ehtiyac vardır. Əks halda, ölkə gənc və yüksək ixtisaslı işçi qüvvəsinin potensialından tam istifadə etməkdə çətinliklərlə qarşılaşa və bu da iqtisadi diversifikasiya və sosial rifahın davamlı inkişafına mənfi təsir göstərə bilər.

## Ədəbiyyat


1. Aliyev T. (2022), What have new jobs created in the past 20 years changed in employment? Labor Market Studies, No.1, 22-33.
2. Aliyev T. (2024), What have new jobs created in the past 20 years changed in employment? Employment and Economic Analysis, 1-10.
3. Asian Development Bank (2023), Digital technology critical for jobs and skills in Azerbaijan - ADB study. Technology and Employment Outlook, 12-19.
4. Gasimov E. (2025), Azerbaijan’s liberated regions see economic growth with over 2,500 jobs created in 2024. Regional Development Journal, 25-30.
5. Guliyeva X. (2020), ILO policy brief on COVID-19 and the world of work: Informal economy workers. Economic Research and Practice, No.4, 14-25.
6. Guliyeva X. (2024), Some methodological approaches to informal employment in Azerbaijan. Economic Reforms and Development, No.2, 11-20.
7. Huseynli R. (2025), Azerbaijan’s diversified economy drives consistent rise in employment. Economic and Social Progress, 8-12.
8. Huseynov N. (2022), Azerbaijan: Country economic memorandum - towards a more diversified, resilient and inclusive economy. Economic Policy and Analysis, No.3, 7-45.
9. Mammadov R. (2023), Encyclopedia of quality of life and well-being research. Social Sciences and Modern Research, No.1, 5-18.
10. Mammadova L. (2025), Azerbaijan sees significant growth in employment, with 70,000 new jobs in 2024. Economic Development Review, 15-20.
11. Najafova S. (2025), Number of newly created jobs in Azerbaijan’s liberated territories more than doubled. Economic Recovery Studies, 18-22.
12. Rahimova S. (2023), Youth policy in Azerbaijan (Chapter 5). Public Administration and Youth Affairs, No.2, 30-42.
13. World Bank (2023), Lifting barriers to women employment will benefit everyone in Azerbaijan. Gender and Economic Policy, 35-45.
14. https://www.stat.gov.az/source/labour/

**Cədvəl 2.** Azərbaycanda təhsil səviyyəsi və mülkiyyət növləri üzrə muzdlu işçilərin sayı (ilin sonuna, min nəfər)

| Təhsil səviyyəsi | 2018 | | | 2019 | | | 2020 | | | 2021 | | | 2022 | | | 2023 | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
| | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət | | dövlət | qeyri-dövlət |
| Cəmi | 1524951 | 878721 | 646230 | 1551726 | 884803 | 666923 | 1646605 | 916784 | 729821 | 1698744 | 912202 | 786542 | 1709091 | 906153 | 802938 | 1738720 | 904140 | 834580 | 1745466 | 900161 | 845305 |
| ali təhsil | 612065 | 382810 | 229255 | 616528 | 381540 | 234988 | 666318 | 392810 | 273508 | 689005 | 391984 | 297021 | 701061 | 392281 | 308780 | 726961 | 403593 | 323368 | 759621 | 410479 | 349142 |
| orta ixtisas təhsili | 344225 | 191475 | 152750 | 329126 | 191866 | 137260 | 332478 | 189015 | 143463 | 348655 | 188194 | 160461 | 344447 | 182748 | 161699 | 344078 | 174001 | 170077 | 339541 | 171271 | 168270 |
| peşə təhsili | 81105 | 37015 | 44090 | 81368 | 39508 | 41860 | 84898 | 39461 | 45437 | 85468 | 36460 | 49008 | 82681 | 34107 | 48574 | 85761 | 38182 | 47579 | 77276 | 38568 | 38708 |
| tam orta təhsil | 434617 | 245105 | 189512 | 472877 | 246272 | 226605 | 513258 | 273013 | 240245 | 524057 | 270555 | 253502 | 519615 | 265568 | 254047 | 522172 | 259642 | 262530 | 505757 | 250739 | 255018 |
| ümumi orta təhsil | 48689 | 20215 | 28474 | 47128 | 22894 | 24234 | 44417 | 20749 | 23668 | 47999 | 23598 | 24401 | 55506 | 29209 | 26297 | 54725 | 26966 | 27759 | 58983 | 27708 | 31275 |
| ibtidai təhsil | 4250 | 2101 | 2149 | 4699 | 2723 | 1976 | 5236 | 1736 | 3500 | 3560 | 1411 | 2149 | 4067 | 1821 | 2246 | 2696 | 937 | 1759 | 2551 | 878 | 1673 |
| təhsili yoxdur | - | - | - | - | - | - | - | - | - | - | - | - | 1714 | 419 | 1295 | 2327 | 819 | 1508 | 1737 | 518 | 1219 |

**Mənbə:** [14]